# Gəncəlilər "Xarıbülbül ətirli bahar bayramı"nı coşqu ilə qarşılayırlar





Novruz bayramı ilə əlaqədar Gəncənin mərkəzi meydanında "Xarıbülbül ətirli bahar bayramı" adlı ümumşəhər tədbiri keçirilmişdir. Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Nikoloz İaşvili, idarə, müəssisə və bələdiyyələrin kollektivləri, ictimaiyyət nümayəndələri və şəhər sakinləri iştirak etmişlər.

Tədbir iştirakçılarını və qonaqları elimizin qədim adəti ilə əllərində şərbət olan milli geyimli qızlar qarşılamışdır. Sonra iştirakçılar sənətkarlıq və yaradıcılıq sərgisinə, həmçinin Gəncə şəhərində fəaliyyət göstərən ali təhsil müəssisələri və Gənclər evinin təşkilatçılığı ilə istedadlı gənclərin hazırladıqları əsərlərdən ibarət sərgiyə baxmışlar. Şəhərdə fəaliyyət göstərən körpələr evi - uşaq bağçalarının, Gəncə pəhləvanlarının və idmançıların nümunəvi çıxışları, eləcə də Gəncə Uşaq Evinin, Gəncə şəhər Uşaq İncəsənət Məktəbinin "Xəmsə" nağaraçalanlar ansamblının çıxışları, "Aşıq deyişmələri" də maraqla qarşılanmışdır.




"Novruz süfrəsi"ndə bayram təamlarından dadan iştirakçılar sonra Gəncə Dövlət Dram Teatrı aktyorlarının Üzeyir bəy Hacıbəylinin "O olmasın, bu olsun" operettasının motivləri əsasında hazırladıqları "Bazar meydanı" tamaşasına baxmışlar.

Nəhayət, müdrik el ağsaqqalı Dədə Qorqud və Bahar qız meydana gələrək iştirakçıları salamlamış, onlara xeyir-dua vermiş və xoş arzularını bildirmişlər. Ardınca Gəncə Dövlət Kukla Teatrının nəhəng kuklalarının, həmçinin Novruzun atributları olan Keçəl və Kosanın maraqlı çıxışları olmuş, yumurta döyüşdürülmüşdür.




Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildikdən sonra incəsənət ustalarının iştirakı ilə böyük bayram konserti olmuşdur. Gəncə Dövlət Filarmoniyası solistlərinin ifasında səslənən mahnılar və "Xəmsə" mahnı və rəqs ansamblının çıxışları alqışlarla qarşılanmışdır. Ardınca "Cəngi" musiqisinin sədaları altında Novruz tonqalı alovlandırılmışdır.

Ümumşəhər tədbirindən sonra Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov Gəncə Uşaq Evinin sakinləri ilə birlikdə bayram süfrəsi ətrafında nahar etmiş, onlara xoş arzularını bildirmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.-19 mart.- S.13.